# Bahar təravətli xanım

*Tibb üzrə fəlsəfə doktoru Əzizə xanım Rüstəmzadəyə*

***Əzizə xanımla tanışlığım ilk növbədə mənim ən çox sevdiyim, Azərbaycanın klassik şairi, görkəmli söz ustası, Xalq şairi, Sosialist Əməyi Qəhrəmanı Süleyman Rüstəmlə bağlıdır. Bu böyük sənətkarın irsini yaşatmaq üçün silsilə tədbirlər həyata keçirirdim. Bu səbəbdən şairin ailəsi ilə tanışlığım ilk növbədə ədibin oğlu Azad Rüstəmzadə və nəvəsi Günəş Rüstəmzadə ilə oldu. Az sonra isə xanımlığına, nəcibliyinə, kübarlığına, yüksək mədəniyyətinə hörmət etdiyim Əzizə xanımla tanış oldum. Bu tanışlıqdan 30 il keçir.***

Əzizə xanım çox sadə, səmimi, nəzakətli, insanı duyan, ona dəyər verən xanımdır. Bunu ilk vaxtlardan hiss etmişdim. Bu xanım həyatsevər, ədalətli insandır. Əlbəttə ki, qələm sahibi olduğumdan onun sözə, sənətə, ədəbiyyata, mədəniyyətə olan marağını da qeyd etmək istəyirəm. Hər verilişimdən, yazımdan sonra Əzizə xanım mənə zəng vurur, fikirlərini söyləyir, məmnunluğunu ifadə edir.

Şair ailəsinə gəlin gələn Əzizə xanım sevilən ailə üzvü olduğundan Süleyman Rüstəm şəxsiyyətinə, sənətinə vurğundur. Dəfələrlə, şairin şeirləri ilə bağlı, eləcə də ona həsr etdiyim televiziya və radio verilişləri, mətbuatda dərc etdiyim yazılarla bağlı fikir mübadiləsi aparırıq. O, bu söhbətlərdən heç bir zaman usanmır. Onun böyük şairə məhəbbəti sonsuzdur. Həm bir gəlin, həm də ki, bir oxucu kimi şairin, vəfatından sonra S.Rüstəmin yubiley gecələrinin təşkilində hər zaman Əzizə xanım məni ruhlandırır, dəstək verir. O, bu dəstəyi özünə borc bilir, ondan xüsusi zövq alır, bununla da ədibə sevgisini, hörmət və ehtiramını, ürəyiyananlığını bildirir.



Xatirimdədir, 2022-ci ildə müəllifliyim ilə S.Rüstəmə həsr olunmuş "Belələri də var. Satira və yumor" adlı kitab hazırlanırdı. Əvvəla, o kitabın ərsəyə gəlməsi üçün Əzizə xanım məni bu işə həvəsləndirdi və təkid etdi. Hətta, öz halal əmək haqqından maliyə ayırıb kitabın çapına sərf elədi. Məhz bu hərəkət onun həm sənətkara, həm də qayınatasına olan böyük sevginin təzahürü idi.

Əzizə xanım nümunəvi, həsəd aparılan qayğıkeş həyat yoldaşı, ana, nənə, qayınana, istəkli qohumdur. Onun tərbiyə etdiyi övladları - Günəş və Azadə layiqli övlad olmaları ilə yanaşı, xalqımızın xidmətində dayanaraq öz soyadlarının adını daim uca tuturlar.

Əzizə xanım həm də gözəl alim, pedaqoqdur. Uzun illərdir, Azərbaycan Tibb Universitetinin Normal fiziologiya kafedrasının dosenti kimi fəaliyyət göstərir, gələcək həkimlərin bu sahədə biliklənməsi üçün var qüvvəsini əsirgəmir. O, neçə-neçə elmi kitab, dərslik, metodik vəsaitin müəllifidir.

Əzizə xanımı tanıdığım bu müddətdə o, heç bir zaman kimsənin qəlbinə toxunmayıb, könül qırmayıb. Hər zaman çəkisini saxlayıb, yerini bilib, kübarlığını, nəcibliyini itirməyib. Onda olan bu meyarlardan əminliklə deyə bilərəm ki, o, əsl Azərbaycan qadınıdır.

Əzizə xanım artıq ömrünün ən müdrik çağına qədəm qoyur - 80 yaşa. Bu, ona uca Yaradan tərəfindən verilən ən böyük lütf, hədiyyədir. Sevindirici haldır ki, mart ayında eləcə də xalq şairi Süleyman Rüstəmin anadan olmasının 120 illiyi qeyd olunacaq. Məncə, həmin yubileydən Əzizə xanıma da pay düşəcək. Bu iki əlamətdar tarix xüsusi qeyd olunacaq. İnanıram ki, bu yubileyin rəqəmləri hələ çox artacaq, onları birgə qeyd edəcəyik.

Xalq şairi S.Rüstəm Əzizə xanımı ailəsinə layiq, nümunəvi, sevilən, qayğıkeş, ədəb-ərkanlı, yüksək mədəniyyətli gəlin görmək istəyərdi. Onun bu arzusu tamamilə çin oldu. Əzizə xanım onun bu etimadını doğrultdu, Rüstəmzadə soyadını ləyaqətlə, şərəflə daşıdı.

Əzizə xanımı bu şanlı yubileyi münasibətilə ürəkdən təbrik edir, ona sağlıqlı uzun ömür, yeni-yeni uğurlar diləyirəm.

Yazımı S.Rüstəmin vaxtilə Əzizə xanıma həsr etdiyi şeirlə sonlandırmaq istəyirəm.

## Qızım

*Qızım Əzizəyə*

Evimizə gələndə məhəbbət gətir, qızım,
Öz hüsnünə bənzəyən təravət gətir, qızım!

Uzun illər boyunca bu həyat yollarında,
Adımıza, adına şan-şöhrət gətir, qızım!

Kasıbın olduğundan süfrəmizdə hər nə var,
Bizə ürəyin kimi bir dövlət gətir, qızım!

Gəl, qızım bəxtimizin çırağı ol ömürlük,
Həqiqət dünyamıza həqiqət gətir, qızım!

Sən əzizdən əzizsən bizim üçün, Əzizəm,
Süleymanın evinə səadət gətir, qızım!



**Qafar Əsgərzadə**
**Əməkdar jurnalist, pedaqogika üzrə fəlsəfə doktoru, dosent**